*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 180-185* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.180*

# Nizami Gəncəvi yaradıcılığının intibah estetikası kontekstində təhlili: Azadə Rüstəmovanın araşdırmaları əsasında

**Nərmin Rzayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, doktorant
E-mail: rzayev.nk@gmail.com

**Annotasiya.** Məqalədə görkəmli ədəbiyyatşünas alim Azadə Rüstəmovanın elmi-nəzəri irsində Nizami Gəncəvi yaradıcılığının intibah hadisəsi kimi şərhi araşdırılır. Tədqiqatın əsas məqsədi Rüstəmovanın nizamişünaslıq konsepsiyasının mahiyyətini, onun Nizami irsinə yanaşmasında intibah düşüncəsinin, və hümanist baxışların necə təcəssüm etdiyini üzə çıxarmaqdır. Müəllif göstərir ki, Azadə Rüstəmova Nizami irsini yalnız bədii-estetik hadisə kimi deyil, həm də ictimai-fəlsəfi və mədəni-renessans təzahürü kimi dəyərləndirmişdir. O, Nizami Gəncəvini orta əsr Azərbaycan düşüncəsində hümanist idealların, intellektual oyanışın və mənəvi kamilliyin daşıyıcısı kimi təqdim etmiş, onun "Xəmsə"sini renessans estetikası kontekstində sistemli şəkildə təhlil etmişdir. Azadə Rüstəmova Nizaminin epik təfəkküründə və bədii sistemində renessans estetikasının əsas əlamətlərini – insan şəxsiyyətinə yönəli marağı, dünyəvi elmlərə önəmi, gözəllik və ağıl harmoniyasını elmi əsaslarla təhlil etmişdir. Azadə Rüstəmovanın fikrincə, Nizaminin yaradıcılığı bəşəri mənəviyyatın intibah dövrü ilə səsləşir və bu baxımdan onun sənəti Şərq mədəniyyətinin renessans mərhələsini təmsil edir.
**Açar sözlər:** Azadə Rüstəmova, Nizami Gəncəvi, intibah, renessans, hümanizm, klassik irs

**Məqalə tarixçəsi:** göndərilib – 05.11.2025; qəbul edilib – 20.11.2025

# Analysis of Nizami Ganjavi's creativity in the context of Renaissance aesthetics: based on the research of Azada Rustamova

**Narmin Rzayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Doctoral Student
E-mail: rzayev.nk@gmail.com

**Abstract.** This article explores the interpretation of Nizami Ganjavi's literary heritage as a Renaissance phenomenon within the scholarly and theoretical legacy of the prominent literary scholar Azada Rustamova. The primary objective of the study is to uncover the essence of Rustamova's concept of Nizami studies and to examine how Renaissance thought and humanistic perspectives are reflected in her approach to Nizami's oeuvre. The author demonstrates that Azada Rustamova evaluated Nizami's legacy not only as an artistic-aesthetic phenomenon but also as a socio-philosophical and cultural-Renaissance manifestation. She presented Nizami Ganjavi as a bearer of humanistic ideals, intellectual awakening, and moral perfection within the context of medieval Azerbaijani thought. Rustamova systematically analyzed Nizami's *Khamsa* within the framework of Renaissance aesthetics. She identified and examined, on a scholarly basis, key features of Renaissance aesthetics in Nizami's epic thinking and literary system – such as the focus on human individuality, the emphasis on secular sciences, and the harmony of beauty and reason. According to Azada Rustamova, Nizami's work resonates with the moral and spiritual ideals of the Renaissance period, and in this regard, his art represents a Renaissance stage in the development of Eastern culture.
**Keywords:** Azada Rustamova, Nizami Ganjavi, Renaissance, rebirth, humanism, classical heritage

**Article history:** received – 05.11.2025; accepted − 20.11.2025

## Giriş / *Introduction*

XII əsr Azərbaycan şeirinin qüdrətli nümayəndələrindən biri olan Nizami Gəncəvinin milli və ümumbəşəri dəyərlərlə, humanist ideyalarla zəngin olan yaradıcılıq irsi uzun müddətdir ki, Azərbaycan, Avropa və bütövlükdə dünya elmi-nəzəri fikrində və şərqşünaslığında bütün dövrlər və zamanlar üçün aktuallıq kəsb edən aparıcı mövzu və elmi istiqamətlərdən birinə çevrilməkdədir.

Nizami irsinin bu mənada milli sərhədləri aşan, ayrı-ayrı xalqların ədəbi-estetik zövqünə və tələbatına cavab verən bir yaradıcılıq faktı kimi geniş maraq və vüsət qazanması onun dünya ədəbiyyatının korifeyləri ilə bir sırada yerini və mövqeyini müəyyənləşdirməyə də əlverişli imkan yaradır.

## Əsas hissə / *Main Part*

Nizami Gəncəvinin yaradıcılığını dünya ədəbiyyatı kontekstində araşdırmaya cəlb edən, bu sahə üzrə qələmə alınan ilk sanballı monoqrafiyanın müəllifi, filologiya elmləri doktoru, professor Əkbər Ağayevin vaxtilə bu xüsusda irəli sürdüyü mülahizələr bu gün də öz elmi dəyərini və əhəmiyyətini qoruyub saxlamaqdadır: *"Nizami dünya ədəbiyyatı xəzinəsinə yüksək bədii dəyəri olan əsərlər vermiş ilk Azərbaycan şairidir. Səkkiz əsr bundan əvvəl yaşamış bu dahi Azərbaycan şairi dünya ədəbiyyatının ən qüdrətli romantik sənətkarlarından, dünya poeziyasının tanınmış liriklərindəndir. Şərq ədəbiyyatında "Xəmsə" adı altında məşhur olan beş poemanın müəllifi, dünya ədəbiyyatının Şekspir, Dante, Göte, Nəvai və başqa bu kimi böyük nümayəndələri ilə bir sırada dayanan görkəmli mütəfəkkir yazıçılardandır"* [2, s.3].

Nizami yaradıcılığının postsovet şərqşünaslığında öyrənilməsi baxımından məşhur rus-sovet şərqşünası Yevgeni Eduardoviç Bertelsin 1939-cu ildə tamamladığı "Böyük Azərbaycan şairi Nizami" adlı mükəmməl monoqrafik araşdırması və Aqafangel Yefimoviç Krımskinin (1871-1942) "Nizami və müasirləri" kitabı böyük şair-mütəkkirin yetişdiyi mühit və yaradıcılıq irsinin ümumbəşəri mahiyyəti haqqında kifayət qədər təsəvvür yarada bilirdi.

Krımskinin adıçəkilən kitabının "Nizaminin öyrənilməsi. Qaynaqlar" adlı birinci fəslində şairin həyatı və mühiti ilə bağlı maraq doğuran məlumatlarla qarşılaşmaq olur: *"Ən yaxşı romantik (daha dəqiq desək, sufi-romantik) Azərbaycan şairi, sonrakı fars romantikası üçün bitib-tükənməz nəzirə qaynağı, türkdilli ədəbiyyatın nümayəndələri üçün də ən ali dərəcəli sevilən ilkin obraz mənbəyi, dünya əhəmiyyətli dahi şair, bütöv adı Şeyx Nizaməddin Əbu Məhəmməd İlyas ibn Yusif ibn Zəki ibn Müəyyəd Gəncəvi olan Nizaminin bioqrafik məlumatları qədim, zaman etibarilə ona yaxın olan fars ədəbiyyatı mütəxəssisləri – tarixçilərinin əsərlərində, demək olar ki, işıqlandırılmamışdır"* [4, s.29].

Bu xarakterik qeydlər şairin milli mənsubiyyətinin, tanınma, tədqiq və öyrənilmə tarixinin Azərbaycanda daha geniş və əhatəli miqyasda aparılmasını əyani faktlardan çıxış etməklə bir daha təsdiqləmiş olur. Nizami Gəncəvinin yaradıcılıq irsinə belə davamlı və fasiləsiz ədəbi-elmi maraq, həm də onun əsərlərində intibah ideallarının özünü parlaq şəkildə təcəssüm etdirməsi ilə sıx bağlı idi. Böyük sənətkar bu mənada Azərbaycan intibahı ilə yanaşı, həm də Şərq intibahını yüksək səviyyədə təmsil edən nümayəndələrindən biri idi.

Zaman-zaman intibahın dünya çapında və ayrı-ayrı regionalarda fərqli dövrlərdə baş verməsi ilə bağlı fikirlərin səsləndirilməsi səngimək bilməyən mübahisələrə yol açmışdır. Ancaq intibahla bağlı ənənəvi yanaşma belədir ki: *"İntibah – orta əsrlərdən yeni zəmanəyə keçid dövründə (XV-XVII əsrlər) Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyətlərinin çiçəklənməsi dövrüdür. F.*

*Engels bu dövrü bəşəriyyətin keçirdiyi ən böyük mütərəqqi çevriliş adlandırmışdır. ...İntibah dövründə müasir təbiətşünaslığın, dünya ticarətinin inkişafının və sənətkarlıqdan manufakturaya keçidin əsasları qoyulmuşdu; kitab çapı yaradılmışdı; katolik kilsəsinin mənəvi diktaturası sındırılmış, incəsənət və ədəbiyyat çiçəklənmişdi. Belə bir vəziyyətin ictimai-iqtisadi şərtləri – kapitalist münasibətlərinin meydana gəlməsi və bununla əlaqədar olaraq şəhərlərin və yeni şəhər mədəniyyətinin erkən çiçəklənməsi – ən əvvəl İntibahın klassik ölkəsi olan İtaliyada əmələ gəlib qərarlaşmışdır”* [1, s.164-165] .

İntibahın mədəni tərəqqinin çeşidli sahələrini özündə kompleks və vəhdət halında cəmləşdirən bir anlayış olduğunu təsdiq edən qənaətlərlə yanaşı, onun milli-regional hüdudlarda və daha geniş və qlobal miqyasda – dünyada baş verən sıçrayışlı inkişaf və tərəqqinin göstəricisi kimi təqdim edən nöqteyi-nəzərlər də mövcuddur. Dirçəliş və tərəqqinin bariz nümunəsi olan bu anlayışın konkret bir coğrafi məkanın hüdudlarında mövcudluğunu israr edən mülahizələrin çözülməsi bir daha sübut etmişdir ki, hər bir sivil xalq və etnos tarixin müəyyən mərhələsində özünün intibah dövrünə qədəm qoya bilər: *“Çünki dünya xalqlarının ictimai-fəlsəfi, bədii-mədəni fikir tarixinin öyrənilməsi prosesi dərinləşdikcə, İntibah probleminə baxış və münasibətlər də dərinləşir, onun məna və məzmun sərhədlərinin yenidən cızılmasına, bu məsələ ilə bağlı məlum elmi müddəaların zəruri təshihinə ehtiyac və tələbat yaranır. İndi getdikcə daha ucadan elan və etiraf olunur ki, İntibah heç də bir çoxlarının düşündüyü kimi, regional-məhəlli hadisə və tarixi mərhələ faktı deyildir. O, ümumbəşəri mədəniyyət hadisəsidir və coğrafi məkanından, tarixi taleyindən, sosial-iqtisadi inkişaf yönündən asılı olmayaraq, bütün sivil xalqlar İntibaha bu və ya digər şəkildə öz töhfəsini vermişlər”* [5, s.17].

Ancaq bununla belə, intibahın Şərq regionunda Avropadan üç əsr əvvəl mövcudluğunu təsdiqləyən fikirlər də irəli sürülməkdədir. Ədəbi-mədəni inkişafın yetkin bir səviyyəyə çatması, sənət əsərlərində insan amilinə yüksək dəyər verilməsi, azad sevgi, insanın mənəvi azadlığına çağırış, ideal dövlət quruculuğu kimi məsələlərin çözülməsini qarşısına bir məqsəd kimi qoyan sənətkarların yetişməsi intibah hadisəsinin bəlli təfsirini və görüntüsünü göz önündə canlandırır.

Doğrudur, Şərq və Azərbaycan intibahının mövcudluğu ilə bağlı fikirlər hələ keçən əsrin 30-40-cı illərindən başlayaraq ayrı-ayrı tədqiqatçılar tərəfindən irəli sürülmüş, bununla ilgili bir sıra ciddi müzakirə və polemikalarda Şərq regionu ilə yanaşı, Zaqafqaziya renessansının mümkünlüyü ideyası da gündəmə çıxarılmışdır.

Bu baxımdan, Moskvada “Nauka” nəşriyyatında İsveçrə şərqşünası Adam Mesin “Müsəlman renessansı” [3] adlı zəngin faktlar əsasında qələmə alınan monoqrafiyasında müsəlman dünyasının inkişafı və çiçəklənməsi tarixi iki əsr qədimlərə – X əsrə çəkilir.

“Ədəbiyyat və incəsənət” qəzetinin 42-ci sayında professor Arif Hacıyevin “Azərbaycan intibahı” məqaləsi dərc olunandan sonra onun doğurduğu rezonans klassik ədəbiyyatın mühüm problemi ətrafında geniş müzakirələrə səbəb olmuş, bununla bağlı dövri mətbuat səhifələrində “Klassika: problemlər, mülahizələr” rubrikası altında silsilə məqalələr dərc edilmişdir.

Qəzetin sonrakı saylarında və digər mətbuat səhifələrində qaldırılan yaradıcılıq problemləri ilə bağlı mülahizələr akademik Məmməd Cəfərin, akademik M. İbrahimovun, professor Q.Əliyevin, professor R.Əliyevin, professor Y.Qarayevin, Z.Quluzadənin və ən nəhayət, professor Əkbər Ağayevin Azərbaycan intibahının mövcudluğunu özünəməxsus pafosla təsdiqləyən “Azərbaycan intibahı problem deyil, həqiqətdir!” adlı məqalə ilə yekunlaşır. Az sonra filologiya elmləri doktoru, professor Xəlil Yusiflinin “Nizami və intibah” monoqrafiyası və 1987-ci ildə doktorluq dissertasiyası kimi müdafiə etdiyi “Nizami Gəncəvi və Azərbaycan renessansı” tədqiqatı böyük sənətkarı intibahın parlaq bir nümayəndəsi kimi araşdırılmasında mühüm nailiyyətlərdən hesab oluna bilər.

“Lirikamız və intibah” adlı məqalə ilə müzakirələrə qoşulan Azadə Rüstəmova XII əsr klassik Azərbaycan şeirində lirikanın aparıcı mövqe qazanmasını zəngin faktlarla üzə çıxarır, ümumiyyətlə, intibahın Şərq zəmini, onun sovet şərqşünaslığında öyrənilmə səviyyəsi barədə yetkin qənaət formalaşdıra bilir. O, konkret faktlardan çıxış edərək, intibah kimi çoxcəhətli və unikal bir dirçəliş

faktının sosial-iqtisadi, ədəbi-mədəni inkişafa gətirib çıxaran səbəbləri barədə geniş məlumat verməyə müvəffəq olur.

Müəllifin intibah probleminin öyrənilməsi baxımından son vaxtlar aparılan tədqiqatların ümumi xülasəsini verən dəyərləndirmə və qənaətləri bu sahədə gedən müzakirələrdə qaldırılan problem məsələlərin geniş və əhatəli miqyas almasını əyani şəkildə təsdiqləyir. Gəlinən nəticə budur ki: *"Müqayisəli tipoloji metod tədqiqatçıları bir çox Şərq xalqlarının tarixində də Qərb ölkələrində böyük dövr açan İntibaha oxşar mərhələlərin olduğu qənaətinə gəlir. Bu gün tədqiqat yenə müqayisəli tarixi-tipoloji metoddan istifadə yolu ilə Şərq İntibahını doğuran ictimai -iqtisadi-siyasi qanunauyğunluqları da araşdırıb üzə çıxarmağa çalışır. Şərq İntibahı zonalar, regionlar üzrə öyrənilir, bu və ya digər ölkənin, xalqın elmi və mədəni həyatında baş verən bu hadisənin səciyyəsi və özünəməxsusluqları faktik materiallar əsasında işıqlandırılır"* [7].

Məqalədə iqtisadi sahələrdə qazanılan uğurların sırasında şəhər amilinin müstəsna rolu və orada sürətlə inkişaf etdirilən sənətkarlıq növlərinin özü də intibah əlamətlərinin bir həlqəsi kimi götürülərək geniş şərh olunur: *"Araşdırmalar və tədqiqlər Azərbaycanda İntibah dövrünü XII əsrə bağlayır. Bu dövrdə bir çox şəhərlərimiz həqiqətən, öz intibah həyatını yaşayırdılar. Şamaxı, Gəncə, Təbriz tranzit şəhər sayılır, Bakı liman şəhəri kimi böyük iqtisadi-hərbi əhəmiyyət kəsb edirdi. Ölkənin əsas dövlətləri olan Eldəgizlər də, Şirvanşahlar da öz adlarına pul kəsirdilər. XII əsr Azərbaycanın möhürü basılan pullar bu gün dünyanın müxtəlif muzeylərində saxlanılır"* [7].

Alimin irəli sürdüyü qənaətlərdə belə bir inkişaf faktorunun intibah poeziyasına bir mövzu mənbəyi, münasibət hədəfi seçilməsi məsələsi maraq doğuran müşahidələrdəndir:*"Bu dövr Azərbaycanı poeziya tariximizdə parlaq iz qoyub gedən neçə-neçə söz ustaları ilə məşhurdur: Əbül Üla Gəncəvi, Fələki Şirvani, Məhsəti xanım, Ömər Gənci, Mücirəddin Beyləqani, İzzəddin Şirvani və nəhayət, Xaqani və Nizami – XII əsr Azərbaycan ədəbiyyatının iki əsas istiqamətverici, magistral yolunun ( lirik və epik şeirin ) başçıları olan nəhəng filosof şairlər. Onların yaradıcılığı, xüsusən Xaqani – Nizami irsi ümumdünya ictimai-bədii fikri işığında götürülərsə, burada Qərb İntibah ədəbiyyatının qabaqcıl nümayəndələrinin sənəti ilə səsləşən, uyar, nə qədər nöqtələr, bağlar aşkar edilər, mənəvi əlaqə, fikir və qayə birliyi tapılar"* [7].

Azadə Rüstəmovanın haqqında yığcam bəhs edilən məqaləsinin bir mühüm əhəmiyyəti də ondadır ki, çoxcəhətli və çoxistiqamətli sahələri özündə ehtiva edən intibah problemlərinin müzakirələrində digər yaradıcılıq növləri sırasında lirika kimi insan hiss və duyğularını, mənəvi dünyasının təbəddülatlarını ifadə edən təsirli vasitənin nəzərə alınması unudulmur, əksinə, intibah insanına xas olan səciyyəvi əlamətlərin, yaşantıların yüksək sənətkarlıqla ifadəsində onun müstəsna rolu təfərrüatı ilə vurğulanır.

Məqalənin tipoloji-müqayisəli metodoloji baxımdan əsaslandırılmasında əsas elmi məqsəd kimi, XII əsr Azərbaycan intibahının daha sonrakı yüzilliklərdə Avropa intibahını dörd-beş əsr qabaqlaması da diqqətdən kənarda qalmır.

Azadə Rüstəmovanın ayrıca 1986-cı ildə qələmə alınan "Azərbaycan Renessans ədəbiyyatı" araşdırmasında dövrün ədəbi-bədii təcrübəsinin inkişafında ölkənin iqtisadi yüksəlişi, əlverişli coğrafi mühitdə, karvan yolları üzərində yerləşməsi, mərkəzi şəhərlərinin infrastruktur özəllikləri, memarlıq və sənətkarlıq, dünyəvi elmlər sahəsindəki irəliləyişlər barədə tarixi faktlardan və mənbələrdəki məlumatlardan istifadə edilməklə ümumi mənzərə haqqında müəyyən təsəvvür yaradılır.

Müəllif dövrün, ictimai-tarixi şəraitin dini elmlərlə bərabər, dünyəvi elmlərlə və təhsillə bağlı tərəfləri barədə mülahizələr irəli sürərkən belə bir tarixi faktlardan çıxış edərək bildirir ki: *"Elm və mədəniyyətin inkişafı üçün əlverişli imkanlar açılmışdı. İstər Eldənizlər, istər Şirvanşahlar maarif və mədəniyyəti himayə edir, məktəblər açır, mədrəsələr tikdirirdilər. Təhsil ocaqlarında İslamın əsasları – kəlam elmi və fiqh, məntiq, tibb, nücum, coğrafiya, tarix və hikmət öyrədilir, Azərbay-*

*canın zəka sahibləri yaxın-uzaq müsəlman ölkələrinə gedir, bu ölkələrin elm və sənət xadimləri ilə sıx əlaqə saxlayırdılar”* [6, s.25].

Müəllifin nəzərincə, Nizami Gəncəvinin elmin müxtəlif sahələrinə öz əsərlərində geniş yer ayırmasını, bu sahədə geniş düşüncəyə, zəkaya malik insan obrazları yaradarkən, təbii ki, müasiri olduğu dövrün elmi bilikləri sahəsində qazanılan nailiyyətlərdən xəbərdar olmalı idi. Araşdırmada adıçəkilən müxtəlif elm sahələrini təmsil edən müəlliflər haqqında verilən məlumatlar bu baxımdan Nizami dövrünün aparıcı simaları olan zəka və bilik sahibləri haqqında icmal xarakterli xülasə kimi də maraq doğurur: *“Dövrün Əbu Zəkəriyya ibn Əli Təbrizi, İbn Əhməd Bərdəi, Əbubəkr Məhəmməd Şirvani, İsmayıl ibn Əli Gəncəvi kimi tibb, fiqh, nücum, hüquq və s. elm sahələri üzrə yazıb-yaradan mütəfəkkirləri islam Şərqinin bir çox ölkələrində məşhur idilər. Böyük Azərbaycan alim və ədibi, fəlsəfə, məntiq, dil və poeziyaya dair neçə-neçə qiymətli əsərlərin müəllifi Xətib Təbrizi (1030-1108) Bağdadın “Nizamiyyə”akademiyasının görkəmli mühaziraçılərindən idi. Qaynaqlar XI-XII yüzilliklərdə yaşayıb-yaradan Azərbaycan filosoflarından Şihabəddin Marağayi-nin “Dialektika”, Əbusəid Urməvinin “Məntiqə dair” traktatlarının ümummüsəlman mədəniy-yətinin zənginləşməsindəki mövqeyindən bəhs edirlər. Bütün Yaxın və Orta Şərq fəlsəfə elmi tarixində böyük xidmətləri olan Bəhmənyar Mərzban Azərbaycaninin fəlsəfə, məntiq və estetikaya dair tədqiqləri insan zəka və idrakına zidd ehkamçı baxışlara qarşı əqlin qüdrət və yaradıcılıq hüdudsuzluqlarını sübuta yetirən orijinal nümunələr idi”* [6, s.25-26].

Azadə Rüstəmova Nizaminin hər bir poemasını təhlil edərkən, ilk növbədə, diqqəti o əsərdə irəli sürülən başlıca ideya üzərinə yönəldir. O, “Sirlər xəzinəsi” poemasında əsas məqsədin ədalətli insan cəmiyyəti haqqında düşüncələr olduğunu vurğulayır. “Xosrov və Şirin” poemasında qadınlıq haqqında söylənən yüksək fikirlərin Avropa intibahının qabaqcıl nümayəndələrini bir neçə əsr qabaqladığını qeyd edir. Azadə Rüstəmova “Leyli və Məcnun” əsərini təhlil edərkən, əsasən bu məqamı diqqətə çatdırır: Məcnun eşq yolçusudur, lakin bu yolçuluq onu insanlardan ayırmır, əksinə, insanlığın əsl mahiyyətinin dərkinə aparır. Azadə Rüstəmovanın “Yeddi gözəl” haqqındakı fikirləri də öz elmi sanbalı və obyektivliyi ilə diqqəti cəlb edir: Əsərin hərəkətverici qüvvəsini ədalət problemi təşkil edir. Bütün Nizami yaradıcılığından keçib gedən, Nizami irsinin məntiqi vurğusu, Nizami humanizminin baş çıxış nöqtəsi olan ictimai ədalət ideyası şairin bu əsərində parlaq ifadəsini tapır. “Xəmsənin sonuncu əsəri “İsgəndərnamə” haqqında alimin söylədiyi fikirlər də öz orijinallığı ilə diqqəti cəlb edir: İskəndər üçün ədalətin qələbəsini şərtləndirən ilkin amil elm və hakimiyyətin birliyi, vəhdətidir. Bu yanaşma müəllifin də qeyd etdiyi kimi, Şərq intibahının humanist ənənələri ilə səsləşir. A.Rüstəmovanın bu təhlili Nizami yaradıcılığında bədii-fəlsəfi sintezə əsaslanan kamillik modelinin həm fərdi, həm də ictimai səviyyədə necə qurulduğunu və bunun humanizm ideyaları ilə necə qarışdığını aydın şəkildə göstərir.

Azadə Rüstəmova Nizami yaradıcılığını orta əsrlər Şərqinin humanist düşüncə nümunəsi kimi dəyərləndirir. Onun fikrincə, Nizami qəhrəmanları daxili-mənəvi kamillik axtarışında olan insandır. Bu isə Şərq intibahı adlandırıla biləcək bir ideya sisteminin formalaşmasına xidmət edir. Nizami yaradıcılığındakı yeniliklər dünya renessans sənəti ilə səsləşən uyar nöqtələr, bəşəri ideyalar onu Şərq mədəniyyətində intibah düşüncəsinin ilk daşıyıcılarından biri kimi qiymətləndirməyə əsas verir.

## Nəticə / *Conclusion*

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, Azadə Rüstəmova Nizami-şünaslıqda yeni səhifələr açmış alimlərdəndir. O, Nizami Gəncəvi yaradıcılığını təhlil edərkən, heç bir məsələyə biganə yanaşmamış, bütün ədəbi prosesləri izləməyə çalışmışdır. Bu xüsusiyyətləri alimin nizamişünaslığa verdiyi töhfə adlandırmaq olar.

**Ədəbiyyat / *References***

1. Ağayev Ə. İntibah, qısa estetika lüğəti. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970.
2. Ağayev Ə. Nizami və dünya ədəbiyyatı. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964.
3. Адам Мец. Мусульманский ренессанс. – Москва: Наука, 1973.
4. Krımski A.Y. Nizami və müasirləri. – Bakı: Aspoliqraf, 2022.
5. Məmmədova S.T. Şərq intibahı, Şərq intibah ədəbiyyatı. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004.
6. Rüstəmova A. Azərbaycan renessans ədəbiyyatı, Mənəvi dünənimiz bugünün işığında. – Bakı: Elm, 2011.
7. Rüstəmova A. Lirikamız və intibah. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 dekabr, 1978-ci il.

## Анализ творчества Низами Гянджеви в контексте эстетики Ренессанса: на основе исследований Азаде Рустамовой

**Нармин Рзаева**
Институт литературы имени Низами Гянджеви НАНА, докторант
E-mail: rzayev.nk@gmail.com

**Резюме.** В статье рассматривается интерпретация творчества Низами Гянджеви как ренессансного явления в научно-теоретическом наследии выдающегося литературоведа Азаде Рустамовой. Основная цель исследования – выявить сущность концепции низамиведения Рустамовой, а также проанализировать как в её подходе к наследию Низами отражаются ренессансное мышление и гуманистические взгляды. Автор показывает, что Азаде Рустамова оценивала наследие Низами не только как художественно-эстетическое явление, но и как социально-философское и культурное проявление Ренессанса. Она представляла Низами Гянджеви как носителя гуманистических идеалов, интеллектуального пробуждения и духовного совершенства в контексте средневековой азербайджанской мысли. Рустамова системно анализировала «Хамсэ» Низами в контексте эстетики Ренессанса. На научной основе она выявила основные черты ренессансной эстетики в эпическом мышлении и художественной системе Низами — интерес к личности человека, внимание к светским наукам, гармонию красоты и разума. По мнению Азаде Рустамовой, творчество Низами созвучно духовным ценностям эпохи Ренессанса, и в этом отношении его искусство представляет собой этап Ренессанса в культуре Востока.
**Ключевые слова:** Азаде Рустамова, Низами Гянджеви, Ренессанс, возрождение, гуманизм, классическое наследие